# DAXİLİ QOŞUNLARIN CÜMHURİYYƏT TARİXİ





**Azərbaycan xalqının Ümummilli Lideri unudulmaz Heydər Əliyev daima uzaq və yaxın keçmişimizin bugünkü nəslə məlum olmayan səhifələrini işıqlandırmağı tövsiyə edirdi. Məhz onun təşəbbüsü ilə bu istiqamətdə bir sıra vacib və gərəkli qərarlar qəbul edilmişdir. Tarixi faktlar aşkarlandıqdan sonra milli ordunun yaranması günü həqiqi tarixi günə-26 iyuna keçirilmişdir. Böyük Öndər bu addımla Azərbaycanda ordu quruculuğunun 80 illik bir tarixi olduğunu təsdiq etmişdir.**

1918-ci ildə yaranmış, şərqdə ilk demokratik respublika olan Azərbaycan asayişin, əmin-amanlığın qorunmasını, qanunazidd hərəkətlərin qarşısının alınmasını da vacib hesab edirdi.

Azərbaycan Respublikasının Dövlət Arxivində mühafizə edilən sənədlərdə bu gün Daxili Qoşunlar adlanan qurumun məhz ADR dövründə (1918-1920) yaradılması barədə məlumatlar var.

Azərbaycan Demokratik Respublikasının yeni təşəkkül tapdığı bir dövrdə əhalini hərbi işlə tanış etmək, şəhərdə sabitlik və nizam-intizamın saxlanması məqsədi ilə Azərbaycan Demokratik Respublikası parlamentinin icazəsi ilə 1919-cu il 1 iyun tarixindən könüllü əsgərlər dəstəsi yaradılmışdır.

Bu barədə Bakı şəhərinin komendantı general-mayor F.Vəzirovun 7 sentyabr 1919-cu il tarixli məlumatında bildirilmişdir.



ВЫПИСКА

...урнала постановлений Комитета Государственной обороны Азербайд...ой Республики отъ 27 марта 1920 года.

СЛУШАЛИ: ...ладъ Председателя Комитета Государственной ...роны о передачѣ Бакинской Организацiи Добровольческихъ Отрядовъ "Ярдымъ-Алайи" въ вѣдѣнiе ...истерства Внутреннихъ ...лъ и объ ассигнованiи средствъ на выдачу жалованья офицерамъ и прочiе расходы Организацiи.

ПОСТАНОВИЛИ: 1. Бакинскую Организацiю Добровольческихъ Отрядовъ "Ярдымъ-Алайи" передать въ вѣдѣнiе Министерства Внутреннихъ Дѣлъ съ ея непосредственнымъ подчиненiемъ Министру Внутреннихъ Дѣлъ. 2. Отпустить изъ средствъ Государственнаго Казначейства въ распоряженiе Министра Внутреннихъ Дѣлъ на выдачу жалованья и прочiе расходы Организацiи одинъ миллiонъ /1.000.000/ рублей.

Съ подлиннымъ вѣрно:
За секретаря Комитета

Dəstə Bakı şəhərinin 14 rayonunu-Sabunçu, Mərkəzi, Balaxanı, Zabrat, Suraxanı, Xil, Aşağı Bibiheybət, Yuxarı Bibiheybət, Qara şəhər, Ağ şəhər, Tağıyev fabrikası, Binəqədi, Maştağa, Nardaranı əhatə edirdi.

Dəstənin rəisi Yusif Ziya bəy Talıbzadə təyin edilmişdir.

**1919-cu il 10 iyun tarixində Azərbaycan Demokratik Respublikası Dövlət Müdafiə Komitəsinin iclasında qərara alınmışdır ki, Bakı şəhəri və onun rayonlarının ərazisində yaşayan hərbi çağırış yaşına çatmış şəxslər üçün hərbi hazırlıq təşkil edilsin.**

**Könüllü dəstələrin təşkili üzrə komissiyanın sədri Yusif Ziya bəy Talıbzadə (beş min rubl əməkhaqqı verilməklə) təyin edilmişdir.**

1920-ci il 27 mart tarixində yenə də



Azərbaycan Demokratik Respublikası Dövlət Müdafiə Komitəsinin qərarı əsasında Bakı təşkilatının Yardım alayının könüllü dəstələri ADR Daxili İşlər Nazirliyinin sərəncamına verilmişdir.

BU BİZİK: - DAXİLİ QOŞUNLAR!







*XX əsrin ilk onillikləri Azərbaycan tarixində milli intibah dövrü kimi yadda qalmışdır. Lakin xalqın milli mənafeyinə, tərəqqiyə xidmət etmiş bir sıra şəxsiyyətlər zaman keçdikcə unudulmuş, sovet ideologiya maşını onların tanınması, həyat və fəaliyyətləri haqqında məlumatların təbliğinə imkan verməmişdir. Xalqımızın milli istiqlalı və tərəqqisi üçün böyük işlər görmüş şəxsiyyətlərdən biri də Yusif Ziya Talıbzadədir.*

# YUSİF ZİYA TALIBZADƏ - ASAYİŞ DƏSTƏSİNİN İLK KOMANDANI



**Yusif Ziya Talıbzadə 1877-ci il yanvar ayının 22-də Tiflisdə anadan olub. Əvvəlcə Tiflisdə, sonra isə Xorasan və Bağdadda yüksək təhsil almış Yusif Ziya XX əsrin əvvəllərində türkçülük, islamçılıq, azərbaycançılığın ideoloqlarından biri, publisist, maarifçi, şair, dramaturq, hərbçi və siyasi xadim idi. O, 1917-1923-cü illərdə milli istiqlal hərəkatının fəal iştirakçısı olub.**

Uşaqlıq və yeniyetməlik çağlarında Yusif Ziya farslaşdırma və ruslaşdırma siyasətinin türkçülüyə vurduğu zərbələri görüb, daima buna qarşı mübarizə aparmışdır. Tədqiqatçıların gəldiyi qənaətə görə, Y.Z.Talıbzadə ölkəmizdə ilk xəritə tərtib etmiş azərbaycanlıdır. "İslam tarixi və tarixi müqəddəs ənbiyayə dair məkanların nəqşəsi və islam məmləkətlərinin xəritəsidir" adlı bu nadir xəritə 1904-cü ildə Bakıda A.M.Promişlyanskinin litoqrafiyasında Azərbaycan dilində çap olunub. İndi biblioqrafik xarakter daşıyan bu nadir divar xəritəsindən XX əsrin əvvəllərində "Rus-tatar" məktəblərində dərs vəsaiti kimi kütləvi şəkildə istifadə edilirdi.

1912-ci ildə Yusif Ziya həyat yoldaşı Cənnət xanım və oğlu Tələtlə Türkiyəyə köçüb, orada hərbi təhsil alıb, I dünya müharibəsində Qars-Ərdəhan türk ordusu sıralarında ruslara, ermənilərə qarşı döyüşlərdə (minbaşı-mayor rütbəsində) qəhrəmanlıqlar göstərib. Yusif Ziya Osmanlı ordusunda polkovnik rütbəsinədək yüksəlib. Onun sonrakı hərbi-siyasi fəaliyyəti Osmanlı ordusu və Azərbaycan könüllülərindən ibarət "İslam ordusu"nda davam edib.

1918-ci ildə Yusif Ziya türk ordusu ilə bərabər Bakıya qayıdır. Vaxtı ilə Türkiyədə çalışan Əhməd bəy Ağaoğlunun hərbi müşavir olduğu bir ordunun könüllülərdən ibarət olan Yardım alayının rəisi olur.

Bu təyinata qədər Bakının alınmasınadək keçən şərəfli döyüş yolunda Osmanlı əsgərləri ilə yanaşı, Yusif Ziyanın da şücaəti şəksizdir.

1921-ci ilin əvvəllərində Yusif Ziya Naxçıvana hərbi komissar təyin olunur. Fevral-mart aylarında ailəsi ilə birgə Naxçıvana köçür. Yeni hərbi komissar Naxçıvan torpağına göz dikən, ona əl uzadan daşnak silahlı dəstələrinə divan tutmaqla Naxçıvanda xeyli məşhurlaşır. Belə məlumatlar da var ki, hətta Naxçıvanda Yusif Ziya kəndi də olub.

Y.Z.Talıbzadə 1921-ci ilin fevral ayından 1922-ci ilin dekabrınadək Naxçıvanda hərbi komissar vəzifəsində çalışıb.

**Lakin Naxçıvan torpaqlarına iddia ilə yanaşan, sərhədləri tez-tez pozan erməni millətçilərinə, daşnaklara qarşı sovet rəhbərliyinin liberal siyasəti ilə razılaşmayan Yusif Ziya Bakıya qayıdır, Nəriman Nərimanovla görüşür, bu quruluşla uyğunlaşa bilmədiyini, sovetlərə qulluq etmək istəmədiyini bildirir. N.Nərimanov Sovet İttifaqı sərhədlərini tərk etmək üçün ona rəsmi sənəd verir.**

**Yusif Ziya Azərbaycandakı fəaliyyətinə son qoyaraq, şəhidliklə başa çatan mühacirət həyatına üstünlük verir. Yaxşı tanıdığı Ənvər paşanın komandanlıq etdiyi, işğalçı Qızıl Ordu ilə vuruşan, Orta Asiya xalqlarının müstəqilliyi uğrunda mübarizə aparanlara qoşulmaqla bir daha milli simasını, ictimai-siyasi mövqeyini, əqidəsini ortaya qoyur.**

Yusif Ziya ilə bağlı Azərbaycan mühacirət ədəbiyyatında dərc olunmuş yazıların hamısında onun qanlı döyüşlər zamanı qəhrəmancasına şəhid olduğu vurğulanır.

**1923-cü ildə Orta Asiyadan gəlmiş bir nəfər Yusif Ziyanın qana bulaşmış köynəyini və həmişə yanında gəzdirdiyi kiçik cib Quranını onun qardaşı yazıçı Abdulla Şaiqə vermişdir. Həmin qanlı cib Quranı Abdulla Şaiqin mənzil muzeyinin ekspozisiya zalında mühafizə olunmaqdadır.**

## Allah rəhmət eləsin

Daxili Qoşunlar Komandanlığı və 12565 saylı hərbi hissənin şəxsi heyəti polkovnik İlkin Əsədova **xalasının və əmisinin** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

TƏSİSÇİ: Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: leytenant X.Tağıyeva

REDAKSİYANIN ÜNVANI: AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63, 590-65-21

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**

ƏSGƏR

№ 06 (472)
18 mart 2016-cı il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN-in Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunları hərbi qulluqçularının təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının yaradılmasının 24-cü ildönümü ilə əlaqədar olaraq, dövlətin ərazi bütövlüyünün təmin olunmasında iştirak etdiklərinə, döyüş zamanı igidlik göstərdiklərinə, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə təltif edilsinlər:

**"Vətən uğrunda" medalı ilə**

Məmmədov İlqar Aydın oğlu – general-mayor.

**"İgidliyə görə" medalı ilə**

Səmədov Aqşin İnqilab oğlu – leytenant (ölümündən sonra)
Hacıyev Faiq Qədir oğlu – çavuş (ölümündən sonra)
Hüseynov Saleh İsi oğlu – əsgər (ölümündən sonra).

**"Hərbi xidmətlərə görə" medalı ilə**

Daşdəmirov Çingiz Əli oğlu – polkovnik
İlmazov Əhliman Xalid oğlu – polkovnik
Məmmədov Şahin İbrahim oğlu – polkovnik
Əliyev Rəhman Hüseyin oğlu – polkovnik-leytenant
Hüseynov Mübariz Afiq oğlu – polkovnik-leytenant
İbrahimov Afər Xamməd oğlu – polkovnik-leytenant
Məmmədov Yusif Miryaqub oğlu – polkovnik-leytenant
Mustafayev Rafət Komsomol oğlu – polkovnik-leytenant
Paşayev Səməd Hafiz oğlu – polkovnik-leytenant
Səmədov Səbuhi Azad oğlu – polkovnik-leytenant
Yusubov Şiraslan Musa oğlu – polkovnik-leytenant
Əsədov Ziya Ramiz oğlu – mayor
İmanov Vidadi İman oğlu – mayor
Qəhrəmanov Hikmət Həsrət oğlu – mayor
Məmmədov Müşfiq Qəşəm oğlu – mayor
Staritskiy Vyaçeslav İqoreviç – mayor
Tağıyev Sadiq Feyruz oğlu – mayor
Zeynalov Müşviq Sovet oğlu – mayor
Hüseynov Emin Elçin oğlu – kapitan
Xəlilov Təbriz Müslüm oğlu – baş leytenant
Məmmədov Rəşad Əşrəf oğlu – baş leytenant.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 10 mart 2016-cı il.**

# DÜNYANIN DİQQƏTİ NÖVBƏTİ DƏFƏ AZƏRBAYCANA YÖNƏLDİ

***IV Qlobal Bakı Forumu ölkəmizin tolerantlıq rəmzi, hər kəsi birləşdirən bir məkan kimi qəbul edilməsinin təzahürüdür***

Prezident İlham Əliyevin ötən 12 ildə apardığı uğurlu xarici siyasət nəticəsində ölkəmizin dünyadakı mövqeləri xeyli güclənmişdir. Bir çox beynəlxalq tədbirlərin Azərbaycanda keçirilməsi ölkəmizin artıq regionun siyasi, iqtisadi və mədəni mərkəzinə çevrildiyinin sübutudur. Bakı şəhərinin mühüm beynəlxalq tədbirlərə evsahibliyi etməsi artıq ənənə halını almışdır. Bakıda beynəlxalq tədbirlərin uğurla keçirilməsi ölkəmizin dünya miqyasında nüfuzunun yüksəldiyini bir daha sübuta yetirir. Bu günlərdə Azərbaycanın paytaxtında "Çoxqütblü dünyaya doğru" mövzusunda IV Qlobal Bakı Forumunun keçirilməsi də bunun təsdiqidir.

Albaniya, Monteneqro, Bolqarıstan, Gürcüstan prezidentlərinin də qatıldığı forumda 27 sabiq prezident və 23 sabiq baş nazir də daxil olmaqla, 53 ölkədən 300-dən çox yüksək səviyyəli qonağın iştirak etməsi Azərbaycanın tanıdılması baxımından böyük əhəmiyyət kəsb edir. Bakıda səfərdə olan tanınmış siyasi və ictimai xadimlərin dünyanı narahat edən qlobal problemləri paytaxtımızda müzakirə etmələri çox mühüm hadisə oldu. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən IV Qlobal Bakı Forumunda bu dəfə münaqişələrin qarşısının alınmasında dinlərarası dialoqun rolu, miqrasiya, multikulturalizm və inteqrasiya məsələləri, o cümlədən qlobal təhlükəsizliyin təmin olunması kimi mühüm məsələlər müzakirə predmeti oldu. Bundan başqa, enerji və qlobal idarəçiliyin perspektivləri ilə bağlı məsələlər də forumda geniş müzakirə edildi.




Qlobal iqtisadi böhranın, milyonlarla insanın yaşayışına, ayrı-ayrı dövlətlərin iqtisadiyyatına təsir edən siyasi münaqişələrin davam etdiyi, ərzaq çatışmazlığı probleminin mövcud olduğu indiki dövrdə siyasi liderləri, keçmiş və indiki dövlət başçılarını bir araya toplayan Bakı Forumu bir çox məsələlərin müzakirəsinə və vacib qərarların qəbuluna əlverişli mühit yaradır.

IV Qlobal Bakı Forumunun açılış mərasimində çıxış edən prezident İlham Əliyev bildirib: "Yaxın Şərqdə və Avropanın müəyyən yerlərindəki vəziyyət, qaçqın böhranı - bunlar son illərin reallıqlarıdır. Odur ki, IV Qlobal Bakı Forumunun əsas məqsədlərindən biri bu məsələlərin müzakirəsidir və xüsusilə də iştirakçıların səviyyəsi, onların beynəlxalq məsələlərə töhfələri, təcrübə və biliklərini nəzərə alsaq, bunların hamısı yaranmış vəziyyətdən çıxış yolunun tapılmasına yardım edə bilər.

Düşünürəm ki, hamımız vahid məqsəd-əməkdaşlıq, qarşılıqlı anlaşma, sabitlik və sülhün təşviqi ətrafında birləşmişik. Çünki biz bir-birimizlə bağlıyıq. Bəzən adama elə gələ bilər ki, televiziya vasitəsilə izlədiyimiz qorxulu hadisələr yad bir planetdə baş verir. Lakin reallıqda bu, qonşuluqda baş verir və qaçqın böhranı nümayiş etdirdi ki, biz bir-birimizlə əlaqəliyik. Hər bir əməl, addım və ya digər dövlətlərin daxili işlərinə müdaxilə mütləq həmin müdaxiləni edənlər üçün çətinliklər yaradacaqdır.

Hesab edirəm ki, bugünkü reallıqların ibrət dərsi məhz budur. Biz bir-birimizə ehtiram nümayiş etdirməli, seçimə, ərazi bütövlüyünə və gələcəklə bağlı planlara hörmətlə yanaşmalıyıq. Bunların hamısı təmasda olmaq üçün zəruridir. Çünki əsas məqsədimiz gərginliyin və mövcud təhlükələrin azaldılmasıdır".

IV Qlobal Forumda "Müasir dövrdə dünyanın vəziyyəti. Gələcəyin çətin problemlərinin həllində nəyə ehtiyac duyulur?", "Suriya naminə qlobal məsuliyyət: fəaliyyət planına doğru", "Ukrayna regional təhlükəsizliyin dönüş nöqtəsi kimi" mövzularında sessiyalar keçirilmiş, həmçinin iqtisadi amillərin əhəmiyyəti və qeyri-bərabərliyi, Qərbin zəifləməsi və qlobal iqtisadi çətinliklərin ciddi nəticələri, iqlim dəyişikliyi və enerji siyasəti: neft istehsal edən ölkələrin rolu, multikulturalizm, dinlərarası dialoq və qarşılıqlı inteqrasiya kimi mühüm istiqamətlər üzrə müzakirələr aparıldı.

Bundan əvvəl keçirilmiş üç forum (I, II və III Qlobal Açıq Cəmiyyətlər Forumu 2013-cü, 2014-cü və 2015-ci illərdə Bakı şəhərində keçirilmişdir) mövzuların genişliyi və aktuallığı, yüksək səviyyəli təmsilçilik və tədbirdə iştirak edən nümayəndələrin fəallığı baxımından dünya ictimaiyyətinin və beynəlxalq medianın diqqətini çəkib.

Qlobal Forumun Bakıda keçirilməsi dünyanın diqqətini növbəti dəfə Azərbaycana yönəltdi. Son illər beynəlxalq tədbirlərə yüksək səviyyədə evsahibliyi edən Bakı bu dəfə Qlobal Forumun iştirakçılarını da qəbul etdi. Dünyanın tanınmış siyasi və ictimai xadimlərinin bir araya gələrək qlobal məsələləri müzakirə etmək üçün mərkəz kimi Bakını seçmələri son dərəcə mühüm əhəmiyyət kəsb edir.

# DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

***Martın 12-də Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının yaranmasının 24 ili tamam olur. Bu münasibətlə Daxili Qoşunların Komandanlığı və bir qrup hərbi qulluqçu Fəxri Xiyabanda Ümummilli Lider Heydər Əliyevin xatirəsini ehtiramla yad ediblər. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər çiçək dəstələri düzülüb.***

Sonra Şəhidlər Xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş Vətən övladlarının unudulmaz xatirəsi yad edilib, "Əbədi məşəl" önünə əklil qoyulub. Torpaqlarımızın azadlığı uğrunda Daxili Qoşunların şəhid olmuş hərbi qulluqçularının xatirəsinə ucaldılmış abidə ziyarət olunub.

Daha sonra Daxili Qoşunların Baş İdarəsində bu qurumun yaranmasının 24-cü ildönümünə həsr olunmuş təntənəli mərasim keçirilib. Mərasimdə respublikanın Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov və Azərbaycan Respublikası Prezidentinin müdafiə məsələləri üzrə köməkçisi, Prezident Administrasiyası rəhbərinin müavini general-leytenant Vahid Əliyev iştirak ediblər.

Əvvəlcə salona Daxili Qoşunların Döyüş Bayrağı gətirilib. Ulu Öndər Heydər Əliyevin, ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda, xidməti borclarını yerinə yetirərkən qəhrəmanlıqla həlak olmuş hərbi qulluqçuların və bütün şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət himni səsləndirilib.

Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov qurumun yaranması, inkişafı və bugünü barədə geniş məruzə ilə çıxış edib. O deyib ki, Ümummilli Lider Heydər Əliyevin 9 mart 1995-ci il tarixli fərmanı ilə 1992-ci ildə Daxili Qoşunların şəxsi heyətinin Azərbaycanın ərazi bütövlüyü uğrunda erməni işğalçılarına qarşı döyüşə başladığı ilk gün-12 mart "Daxili Qoşunlar Günü" kimi müəyyən olunub. Ötən illər ərzində Daxili qoşunlar ciddi sınaq və çətinliklərdən dəyanətlə çıxıb. Torpaqlarımızın azadlığı naminə aparılan döyüş əməliyyatları zamanı qoşunların şəxsi heyəti əsl qəhrəmanlıq nümunələri göstərib. Bu döyüşlərdə 510 hərbi qulluqçu həlak olub, 1166 nəfər yaralanıb, 268 nəfər isə itkin düşüb. Hərbi qulluqçularımızdan 9 nəfəri "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb.

Daha sonra atəşkəs dövründə Qoşunlarda idarəetmənin təkmilləşdirilməsi, döyüş hazırlığının artırılması, peşə hazırlığının yüksəldilməsi, hərbi intizamın möhkəmləndirilməsi, normativ-hüquqi və maddi-texniki bazanın yaradılması istiqamətində əməli tədbirlər həyata keçirilib. Şəxsi heyətin sosial müdafiəsinin gücləndirilməsi, hərbi hissələrdə məişət və yaşayış şəraitinin yaxşılaşdırılması əsas vəzifələrdən biri olub.

Məruzəçi qeyd edib ki, xalqımıza, dövlətimizə, dövlətçiliyimizə sədaqət və fədakarlıqla xidmət edən Daxili Qoşunların hərbi qulluqçuları polis orqanlarının əməkdaşları ilə birgə qarşıya qoyulmuş tapşırıqları hər zaman uğurla yerinə yetiriblər. Respublikada ictimai asayişi pozmaq cəhdlərinin qarşısının alınması və silahlı cinayətkar dəstələrin zərərsizləşdirilməsi üzrə keçirilən xüsusi əməliyyatlarda şəxsi heyət yüksək döyüş hazırlığı, peşəkarlıq göstərib.



2015-ci ildə və cari ilin ötən dövründə də qarşıya qoyulmuş döyüş tapşırıqları tam yerinə yetirilib, hərbi qulluqçular ictimai asayişin keşiyində əzmlə dayanıblar. Şəxsi heyət respublikanın bir sıra bölgələrində asayişin qrup halında pozulması, dövlətin konstitusiya quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə olan hüquqazidd əməllərin qarşısının alınması, qanunçuluğun və hüquq qaydasının bərpa edilməsi üzrə həyata keçirilən tədbirlərdə də yüksək peşəkarlığı və vətənpərvərliyi ilə fərqləniblər.

Sonra Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin peşə bayramı münasibətilə təbriklərini və xoş arzularını şəxsi heyətə çatdırıb. Nazir "Dövlət quruculuğu prosesində Daxili Qoşunların düzgün istiqamətdə təşkil olunması çox əhəmiyyətli məsələdir" deyən Ümummilli Lider Heydər Əliyevin ordu quruculuğu çərçivəsində Daxili Qoşunların təkmilləşməsinə böyük önəm verdiyini, məhz onun xüsusi diqqət və qayğısı ilə formalaşıb inkişaf etdiyini, yüksək döyüş hazırlığı olan peşəkar və mobil bir quruma çevrildiyini məmnunluqla xatırladıb.

Nazir R.Usubov vurğulayıb ki, bu gün Silahlı Qüvvələrin Ali Baş Komandanı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin xüsusi diqqət və qayğısının, tələb və göstərişlərinin nəticəsi olaraq, Daxili Qoşunlar qarşısına qoyulan istənilən döyüş tapşırığını yüksək keyfiyyətlə yerinə yetirməyə qadirdir. Nazir deyib ki, Ulu Öndərin ordu quruculuğu sahəsində də siyasətini uğurla davam etdirən möhtərəm dövlət başçımızın Daxili Qoşunların inkişafı üçün qəbul etdiyi qərarlar, göstərdiyi diqqət və qayğı şəxsi heyət tərəfindən həmişə dərin minnətdarlıqla və ruh yüksəkliyi ilə qarşılanır. Ölkəmizin rəhbərinin Daxili Qoşunların müxtəlif tədbirlərində iştirakı, eləcə də qoşunların xidməti fəaliyyətinə verdiyi yüksək qiymət, haqqında söylədiyi dəyərli fikirlər, verdiyi tövsiyələr hər zaman fəaliyyət proqramı kimi qəbul olunmaqla şəxsi heyəti daha böyük uğurlara ruhlandırır.

Bildirilib ki, məhz Ali Baş Komandanın əvəzsiz dəstəyi sayəsində Daxili Qoşunların maddi-texniki bazasının, kazarma-yaşayış fondunun yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilib, hərbi hissələr ən yüksək beynəlxalq standartlara uyğun olan texnika, xüsusi vasitələr və rabitə sistemləri ilə tam təchiz edilib. 2011-ci ildə Daxili Qoşunların ixtisaslı zabit kadrları ilə təmin olunmasının daha da yaxşılaşdırılması məqsədilə orta ixtisas hərbi məktəbinin bazasında Ali Hərbi Məktəb yaradılıb. Bu ali diqqət və qayğı isə hərbi qulluqçulardan üzərlərinə düşən vəzifələri daha böyük məsuliyyətlə yerinə yetirməyi tələb edir.

O da nəzərə çatdırılıb ki, Daxili Qoşunlar 1997-ci ildən Türkiyə Jandarm Təşkilatı ilə sıx əməkdaşlıq edir. Bu illər ərzində Jandarm Qüvvələrinin yardımı ilə Qoşunlarda xidməti-döyüş fəaliyyəti və kadr hazırlığı işi müasir tələblərə uyğun qurulub. Nazir əldə edilmiş uğurlarda böyük rolu olan türk həmkarlarımızın danılmaz əməyini, təmənnasız yardımlarını xüsusi qeyd edərək, dost və qardaş dövlətin Silahlı Qüvvələrinin, onun Jandarm Komandanlığının rəhbərliyinə və hərbi mütəxəssislərinə təşəkkürünü bildirib.

Daxili İşlər Naziri qoşunların özünün ən müqəddəs missiyasını Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasında gördüyünü və bu gün onun bərpası uğrunda hərbi əməliyyatlara tam hazır olduğunu, bu missiyanın uğurla həyata keçirilməsi üçün şəxsi heyətin Silahlı Qüvvələrlə birgə hərbi təlimlərdə mütəmadi iştirak etdiyini diqqətə çatdırıb.

Çıxışının sonunda R.Usubov daxili işlər orqanlarının fəaliyyətini hər zaman yüksək qiymətləndirən, peşə bayramı ərəfəsində bir qrup hərbi qulluqçunu dövlət mükafatları ilə təltif edən Azərbaycan Prezidenti cənab İlham Əliyevə minnətdarlığını bildirib. O, ölkə başçısını əmin edib ki, «Vətənin əsgəri» adını daim uca tutan qoşunların şəxsi heyəti bundan sonra da müstəqilliyin və sabitliyin keşiyində ayıq-sayıq dayanacaq, vətəndaşların qanuni mənafelərinin hüquqazidd əməllərdən qorunmasında səy və bacarığını əsirgəməyəcək, öz şanlı ənənələrini qoruyub saxlayaraq inkişaf etdirəcək, döyüş hazırlığını daim artıracaq, Azərbaycan dövlətinə, dövlətçiliyinə, Vətənə, Prezidentə sədaqətli xidmətini davam etdirəcək.

Daha sonra Daxili Qoşunlarının yaranmasının növbəti ildönümü münasibətilə bir qrup hərbi qulluqçunun təltif edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı, həmçinin, Daxili İşlər Nazirinin və Daxili Qoşunların Komandanının imzaladıqları əmrlər elan olunub. Xidmətdə fərqlənənlərə dövlət təltifləri və yeni rütbələr təqdim edilib.

Tədbirin sonunda mərasim iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı zati-aliləri cənab İlham Əliyevə müraciət qəbul olunub.






# 12 MART DAXİLİ QOŞUNLAR GÜNÜDÜR!









## ŞƏXSİ HEYƏT DAXİLİ QOŞUNLARIN YARADICISI VƏ QURUCUSU ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN İDEYALARINA SADİQDİR

### 24 İLDƏ QAZANILAN UĞURLARIMIZ, NAİLİYYƏTLƏRİMİZ...

***Hər il olduğu kimi, bu il də Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının ildönümü böyük təntənə ilə qeyd olundu. Bu gün tam məsuliyyətlə demək olar ki, Daxili Qoşunlar üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlir. Bu fikir Ümummilli Lider Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin çıxışlarında da öz əksini tapıb. Təbii ki, DİN-in Daxili Qoşunlarının formalaşmasında, müasir standartlara cavab verən hərbi birləşməyə çevrilməsində Ulu Öndər Heydər Əliyevin fədakar xidmətləri olub. Məhz elə bu səbəbdəndir ki, Ümummilli Liderin Daxili Qoşunların yaradıcısı və qurucusu olduğunu dərindən dərk edən hərbi qulluqçularımız Heydər Əliyevin siyasətinə, ideyalarına sadiq qalaraq Azərbaycanın inkişafı naminə xidməti vəzifələrinin icrasına daha məsuliyyətlə yanaşırlar.***

Hazırda respublika prezidentinin rəhbərliyi altında Daxili Qoşunların maddi-texniki bazasının gücləndirilməsi, döyüş qabiliyyətinin yüksəldilməsi istiqamətində mühüm addımlar atılmaqdadır.

Ötən dövr ərzində Daxili Qoşunların nailiyyətlərini, mühüm inkişaf göstəricilərini nəzərdən keçirmək yerinə düşərdi.

Müstəqillik illərində fəaliyyətinin hüquqi-normativ bazası yaradılıb. Sovet dövründən qalma direktiv, əmr və təlimatlar, nizamnamə və əsasnamələr öz qüvvəsini itirib.

Daxili Qoşunların hərbi hissələrinin maddi-texniki bazası möhkəmləndirilib, bir sıra regionlarda yeni hərbi şəhərciklər yaradılaraq ictimai təhlükəsizlik sistemində öz yerini tutub. Bundan əlavə, Daxili Qoşunların xüsusi təyinatlı bölmələri və helikopter eskadrilyası bölmələri formalaşdırılıb. Bu amil qüvvələrin xüsusi döyüş tapşırığını yerinə yetirmələrinə çevik müdaxiləsini xeyli artırıb. Hərbi qulluqçularımız paraşütdən tullanmada da öz məharətini göstərib və bu sınaqdan alnıaçıq çıxıblar.

Ötən illərdə beynəlxalq əməkdaşlıq əlaqələri genişlənib, Daxili Qoşunların hərbi qulluqçularının ayrı-ayrı ölkələrdə hərbi təhsil alması, təkmilləşmə kursu keçməsi yönündə addımlar atılıb. Bəzi hərbi qulluqçularımız xaricdəki hərbi təhsil müəssisələrində yüksək təlim nəticələri əldə ediblər. Beynəlxalq əlaqələr çərçivəsində xidmətin müxtəlif istiqamətləri üzrə xarici həmkarlarla faydalı təcrübə mübadiləsi aparılıb.

Şəxsi heyətin qidalanması, geyim təchizatı, tibbi təminatı müasir tələblər səviyyəsinə çatdırılıb. Əsgərlər üçün yeni kazarmalar inşa olunub, zabit və gizirlərin, onların ailə üzvlərinin istifadəsinə yeni xidməti mənzillər verilib, eyni zamanda onların istirahətini yüksək səviyyədə təmin etmək üçün mərkəz yaradılıb.

Daxili Qoşunların vəzifələrinin uğurla icra olunması üçün müvafiq təlim-tədris proqramları işlənib, təlim vəsaitləri yenilənib, müasir texnologiyalardan istifadə olunmasına başlanıb.

Mərhələ-mərhələ, öncə zabit və gizirlər üçün tədris mərkəzinin, sonra kiçik zabitlər hazırlayan orta ixtisas hərbi məktəbinin və onun bazasında Ali Hərbi Məktəbin yaradılması ötən dövr üçün Daxili Qoşunların mühüm inkişaf göstəricilərindən sayıla bilər.

Ötən müddətdə Daxili Qoşunların şəxsi heyətinin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun qorunub saxlanmasına xüsusi diqqət yetirilib. Elə bu məqsədlə, habelə Daxili Qoşunların tarixini əks etdirmək üçün muzeyin yaradılması təqdirəlayiq nailiyyətdir.

Həmçinin bu illərdə Daxili Qoşunların Qarabağ müharibəsində insani və maddi itkilərinin, habelə döyüşlərdə iştirak etmiş hərbi hissələrin qiymətli təcrübəsinin müəyyən tədqiqatları davam etdirilməkdədir.

Qeyd olunan dövrdə Daxili Qoşunların emblemi, döyüş bayrağı və döş nişanı təsdiq edilib. Bütün hərbi hissələrə döyüş bayrağı təqdim olunub və şəxsi heyətə onun müqəddəsliyi aşılanıb.

Təhlil etdiyim o illərdə idman uğurlarına da imza atmışıq. Peşəkar idmançı hərbi qulluqçularımız arasında Olimpiya oyunlarında, Dünya və Avropa çempionatlarında qalib olaraq ölkəmizin bayrağını qaldıranlar xalqımızın fəxridir.

Göstərilən nailiyyətlərə rəğmən, Daxili Qoşunların nüfuzunu formalaşdıran, peşəkar imicini yaradan əsas faktor xidməti-döyüş fəaliyyətində qarşıya qoyulan tapşırıqların layiqincə yerinə yetirilməsi olub. Bu gün də belədir.

Vətəndaşlarımızın əmin-amanlığını təhdid edən, ictimai asayişə təhlükə yaradan silahlı cinayətkarların, terrorçu qrupların zərərsizləşdirilməsi, ayrı-ayrı vaxtlarda paytaxt və bəzi bölgələrdə kütləvi iğtişaşların qarşısının alınması, dövlət əhəmiyyətli tədbirlərdə ictimai təhlükəsizliyin təmin olunması, təbii fəlakətlər zamanı xilasetmə işlərində fəal iştirak edilməsi, mühüm dövlət obyektlərinin etibarlı qorunması ictimai rəydə "onlara güvənmək olar" mövqeyinin səslənməsini reallığa çevirib.

Əminliklə demək olar ki, Daxili Qoşunların şəxsi heyəti bu gün də hər bir sınaqdan keçməyə qadirdir.

**Yalçın Abbasov,**
**Daxili Qoşunların**
**Veteranlar Şurasının katibi**

## DAXİLİ QOŞUNLARIN ÖLKƏMİZDƏ MÜSTƏQİLLİYİN VƏ SABİTLİYİN QORUNMASINDA MÜHÜM XİDMƏTLƏRİ VAR

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının yaradılmasından 24 il keçir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunları hərbi qulluqçularının təltif edilməsi haqqında sərəncam imzalayıb. Sərəncama əsasən, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının yaradılmasının 24-cü ildönümü ilə əlaqədar olaraq, dövlətin ərazi bütövlüyünün təmin olunmasında iştirak etdiklərinə, döyüş zamanı igidlik göstərdiklərinə, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə bir qrup hərbi qulluqçu təltif edilib.

1993-cü il noyabrın 2-də Ulu Öndər Heydər Əliyevin Vətənin ağır günlərində xalqa, Silahlı Qüvvələrin şəxsi heyətinə müraciəti böyük canlanma və ruh yüksəkliyi yaradıb. Bunun ilkin nəticəsi olaraq, Füzuli istiqamətində aparılan uğurlu döyüş əməliyyatları zamanı Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyəti əsl qəhrəmanlıq nümunələri göstərib. Ümumiyyətlə, döyüş əməliyyatlarında Daxili Qoşunların şəxsi heyətindən 510 nəfər həlak olub, 1166 nəfər yaralanıb, 268 nəfər isə itkin düşüb. Qarabağ savaşında iştirak etmiş hərbi qulluqçularımızdan 9 nəfəri "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb. Daxili Qoşunların Azərbaycan xalqına, dövlətinə və dövlətçiliyinə sədaqətlə xidmət etməsi, fədakarlığı Ümummilli Liderin və Azərbaycan Prezidenti cənab İlham Əliyevin diqqətindən kənarda qalmayıb, bir çox hərbi qulluqçu dövlət mükafatlarına layiq görülüb.

Göstərilən ali diqqət və qayğının əyani təzahürüdür ki, Daxili Qoşunların yaranmasının növbəti ildönümü ilə əlaqədar möhtərəm Prezidentimiz tərəfindən imzalanmış müvafiq sərəncamla hərbi qulluqçulardan 1 nəfər "Vətən uğrunda", 3 nəfər "İgidliyə görə" (ölümündən sonra), 21 nəfər "Hərbi xidmətlərə görə" medalları ilə təltif edilib.

Ölkədə sabitliyin təmin edilməsində mühüm rolu olan Daxili Qoşunlarda səhra təcrübəsinin təkmilləşdirilməsi, hərbi qulluqçuların fərdi bacarıqlarının və birgə fəaliyyətlərinin, istənilən hava və coğrafi şəraitlərdə tapşırıqların yerinə yetirilməsinin prinsiplərinin müəyyən edilməsi, habelə, əməliyyatlar zamanı döyüş təminatının vaxtında təşkil edilməsi məqsədilə, xüsusi-taktiki hərbi təlimlər keçirilir, real əməliyyat şəraitinə uyğunlaşdırılmış bu tədbirlər hazırda da davam etdirilir.

Hazırda yüksək döyüş hazırlığına malik olan Daxili Qoşunların bütün hərbi hissələri müasir tipli silah və xüsusi vasitələr, döyüş sursatları, zəruri texnika və nəqliyyat vasitələri ilə təmin olunub.

Daxili Qoşunların şəxsi heyətinin ərazi bütövlüyümüz və suverenliyimizin, dövlətçiliyimizin, milli mənafelərimizin keşiyində hər zaman ayıq-sayıq dayandığı, ölkəmizdə daxili sabitliyin, ictimai qaydanın və ictimai təhlükəsizliyin qorunmasında əsas qüvvələrdən biri olduğu şübhəsizdir.

Paytaxtımızda keçirilmiş beynəlxalq idman yarışları və digər kütləvi tədbirlərdə Daxili Qoşunların hərbi qulluqçuları polis əməkdaşları və digər hüquq-mühafizə orqanları ilə birlikdə ictimai təhlükəsizliyin təmini üzrə qarşıya qoyulmuş tapşırıqları uğurla icra etmişlər.

Xüsusilə də, ötən ilin sonlarında Nardaranda dövlətin konstitusiya quruluşunun əsasları əleyhinə yönəldilən hərəkətlərin qarşısının alınması, qanunçuluğun, sabitliyin və ictimai qaydanın bərpası məqsədilə Daxili Qoşunların məhdud sayda şəxsi heyəti də cəlb edilməklə keçirilmiş xüsusi əməliyyat nəticəsində qəsəbədə ictimai asayiş və təhlükəsizlik təmin olunub, dövlət və bələdiyyə orqanlarının normal işi ilə bağlı aidiyyəti qurumlara zəruri köməklik göstərilib.

Şübhəsiz ki, Daxili Qoşunların belə qətiyyətli və uğurlu fəaliyyəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yüksək diqqət və qayğısı, Daxili İşlər Naziri general-polkovnik Ramil Usubovun gərgin əməyi və Daxili Qoşunlar Komandanlığının nümunəvi xidməti sayəsində mümkün olmuşdur.

Son illər dövlət başçısı və Daxili İşlər Nazirliyinin rəhbərliyinin tələb və göstərişlərinə uyğun olaraq Daxili Qoşunların fəaliyyəti daha da güclənmiş, əsgər və zabit heyətinə diqqət və qayğı artmışdır.

Şübhəsiz ki, daxili işlər orqanları, Daxili Qoşunların şəxsi heyəti vətənə, xalqa, dövlətə və Prezidentə sədaqətli xidmətini bundan sonra da əzmlə davam etdirəcəkdir.

**Editor.az**
**İnformasiya Agentliyi**



***Daxili Qoşunların yaranmasının 24-cü ildönümünə həsr olunmuş tədbirlər Daxili Qoşunların Baş İdarəsi ilə yanaşı, 99713 və 67987 saylı hərbi hissələrdə də təntənəli şəkildə qeyd olunub. İlk olaraq, bayram tədbirlərinin keçirilməsi ilə bağlı müvafiq plan hazırlanaraq, hərbi hissə komandirləri tərəfindən təsdiq edilib.***



## QOŞUNLARIN İLDÖNÜMÜ HƏRBİ HİSSƏLƏRDƏ DƏ TƏNTƏNƏ İLƏ QEYD OLUNUB

Plana əsasən, şəhid və həlak olmuş hərbi qulluqçuların ailələri, həmçinin hərbi hospitalda müalicə alan hərbi qulluqçular ziyarət olunub, onlara bayram sovqatları paylanılıb. Bundan əlavə, şəxsi heyətlə Daxili Qoşunların yaranma tarixi, keçdiyi şərəfli döyüş yolu, eləcə də Daxili Qoşunların Milli Qəhrəmanları və şəhid hərbi qulluqçuları barədə disputlar təşkil edilib, qoşunlara həsr olunmuş sənədli filmlər nümayiş etdirilib. Həmçinin, bölüklərdə divar qəzetlərinin xüsusi buraxılışları hazırlanıb.




Daha sonra tədbir sıra meydanında davam etdirilib. Ümummilli Liderimiz Heydər Əliyevin və şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət himni ifa olunub. Daxili Qoşunların tarixi, eləcə də 24 il ərzində əldə etdiyi uğurlar haqqında geniş məlumat verildikdən sonra Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının təbrik və tövsiyələri çatdırılıb.

Xalqımıza, dövlətimizə, dövlətçiliyimizə sədaqət və fədakarlıqla xidmət edən Daxili Qoşunların hərbi qulluqçuları tərəfindən bütün tapşırıqların uğurla yerinə yetirildiyi vurğulanan təbrik məktubunda şəxsi heyətin bundan sonra da Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin əmr və göstərişlərini yerinə yetirməyə, torpaqlarımızı düşmən tapdağından azad etmək üçün döyüşməyə hər an tam hazır olduğuna əminlik ifadə olunub. Sonda Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının və hərbi hissə komandirinin əmrlərinə uyğun olaraq xidmətdə fərqlənən hərbi qulluqçulara mükafatlar təqdim edilib. Tədbir şəxsi heyətin təntənəli keçidi ilə başa çatıb.

**leytenant X.Tağıyeva**

## HƏRBİ HİSSƏLƏRİMİZ NOVRUZ BAYRAMINI QARŞILAMAĞA HAZIRDIR

***Bayram tədbirlərinin təmtəraqla keçirilməsi eyni zamanda şəxsi heyətin mənəvi-psixoloji durumunun yüksəlməsinə xidmət edir***

Mart ayının 20-21-də bütün müsəlman dünyası, o cümlədən Azərbaycan xalqı ilin təzələnməsini, yəni baharın gəlişini böyük təntənə ilə qeyd edir. Tarix boyu öz gəlişi ilə yurdumuza bolluq, bərəkət, sevinc və xoş arzular gətirən, təbiətin oyanması, baharın rəmzi sayılan Novruz xalqımızın ən dəyərli bayramıdır.

Ölkə miqyasında bütün idarə və təşkilatlarda coşqu ilə keçirilən el bayramımızın hər il olduğu kimi, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında bu il də yüksək səviyyədə qeyd olunacağı planlaşdırılır. Belə ki, müvafiq göstərişə əsasən, bayram günlərində şəxsi heyətin ziyalılarla görüşlərinin keçirilməsi, hərbi hissələrdə bilik yarışlarının, viktorinaların, eləcə də özfəaliyyət kollektivlərinin konsert proqramlarının təşkil edilməsi, yanğın təhlükəsizliyi qaydalarına ciddi riayət edilməklə bayram tonqallarının qalanması, hərbi qulluqçular üçün bayram naharlarının hazırlanması nəzərdə tutulub.

Həmçinin göstərişə əsasən torpaqlarımızın bütövlüyü uğrunda canından keçmiş şəhid hərbi qulluqçularımızın ailə üzvləri ziyarət olunaraq, bayramları təbrik ediləcək.

Qeyd edək ki, bayram günlərində Respublika Hərbi Prokurorluğunun əməkdaşları tərəfindən hərbi hissələrimizdə şəxsi heyətlə hüquqi-maarifləndirici mövzuda söhbətlərin aparılması, hərbi qulluqçulara xidmət müddətində Azərbaycan Respublikasının Qanunlarının, hərbi nizamnamələrin tələblərinə ciddi riayət etmələrinin vacibliyinin çatdırılması da nəzərdə tutulub.

Bayram tədbirinin rəsmi hissəsi başa çatdıqdan sonra Daxili Qoşunların Nümunəvi-göstərici hərbi orkestrinin kollektivi şəxsi heyətə öz musiqi töhfələrini çatdıracaq.

Ümumiyyətlə, qoşunlarda bayram tədbirlərinin bu cür təmtəraqla keçirilməsi eyni zamanda hərbi qulluqçuların mənəvi-psixoloji durumunun yüksəlməsinə xidmət edir.

**leytenant N.Ağayeva**

## DAXİLİ İŞLƏR ORQANLARININ ƏMƏKDAŞLARI NOVRUZ BAYRAMI GÜNLƏRİNDƏ GÜCLƏNDİRİLMİŞ İŞ REJİMİNDƏ İŞLƏYƏCƏK

**Novruz bayramı günlərində respublikanın daxili işlər orqanlarının əməkdaşları gücləndirilmiş iş rejimində fəaliyyət göstərəcək.**

Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətindən **AZƏRTAC**-a bildiriblər ki, Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov bununla bağlı müvafiq əmr imzalayıb.

Əmrə əsasən, respublikada keçiriləcək Novruz bayramı şənlikləri zamanı ictimai asayişin, qanunçuluğun və hüquq qaydasının qorunmasının, xidməti vəzifələrin yüksək səviyyədə və daha mütəşəkkil icrasının təmin edilməsi məqsədi ilə martın 19-dan 28-dək DİN-in bilavasitə tabe qurumlarının, ərazi polis orqanlarının və nizami polis hissələrinin şəxsi heyəti gücləndirilmiş iş rejiminə keçiriləcək.

Əmrdə, həmçinin bildirilir ki, bayram ərəfəsi və bayram günlərində ictimai yerlərdə və küçələrdə post patrul xidməti naryadlarının sayı artırılacaq, mühüm əhəmiyyətli obyektlərin, o cümlədən xarici ölkələrin diplomatik nümayəndəliklərinin mühafizəsi ciddi nəzarətdə saxlanılacaq.

### NÜMUNƏVİ XİDMƏT

## "VƏTƏN UĞRUNDA CANIMIZDAN BELƏ KEÇMƏYƏ HAZIRIQ"

***Nümunəvi hərbi qulluqçumuz əsgər Nurlan Novruzov* Daxili Qoşunların 99713 saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətdədir.**



O, 1997-ci ildə aprelin 20-də Tərtər rayonunun Hüsnəli kəndində anadan olub. Komendant taqımının əsgəri olan N.Novruzov çevikliyi, bacarığı və nizam-intizamı ilə fərqlənir. Xidməti vəzifə borclarını ləyaqətlə yerinə yetirən hərbi qulluqçumuz verilən tapşırıqların icrasına məsuliyyətlə yanaşaraq yoldaşlarına əsl nümunə göstərir.

Komendant taqımında xidmətin olduqca məsuliyyətli və çətin olduğunu dərk edən əsgərimiz xidmətin ilk günlərindən şəxsi nümunə və dözümlülük nümayiş etdirdiyinə görə qarovul xidmətinə cəlb olunub. Hazırda qarovulun fəalları sırasındadır.

Azərbaycan əsgəri adını daşımaqdan qürur duyduğunu deyən Nurlan hesab edir ki, hər bir vətən oğlu öncə torpağını sevməli və onun bütövlüyü uğrunda canından belə keçməyə hazır olmağı bacarmalıdır. Doğma torpaqlarımızın düşmən tapdağından tezliklə azad olunacağı günü səbirsizliklə gözləyən hərbi qulluqçumuz əldə silah hər an Vətənin keşiyində müsəlləh əsgər kimi dayandığını deyir: "Vətən sevgisi, vətənpərvərlik hər bir insanın daxilində olmalıdır. Vətənin müdafiəsi, onun nüfuzunun və qüdrətinin möhkəmləndirilməsi üçün hər birimiz səy göstərməli, nizam-intizamlı, cəsarətli və vicdanlı olmalı, xidməti vəzifə borclarımızın icrasına məsuliyyətlə yanaşmalıyıq".

***Nümunəvi xidmətilə seçilən daha bir əsgərimiz 25031 saylı hərbi hissədə xidmət edən Elməddin Məmiyevdir.***

O, 1996-cı il sentyabrın 19-da Sabirabad rayonunda doğulub. 2014-cü ildən Daxili Qoşunların 25031 saylı hərbi hissəsinin komendant bölüyündə xidmət edir. Xidmətə müsbət münasibəti sayəsində komandirlərinin dərin rəğbətini qazanan Elməddin verilən bütün tapşırıqları çevik və dəqiqliklə yerinə yetirir. O, təhkim olunmuş silahın taktiki-texniki xüsusiyyətlərini dərindən bilir, üzərinə düşən bütün vəzifələri məsuliyyətlə icra edir.

Əsgər E.Məmiyev məşğələlərdə də fəallıq göstərir. İstər fiziki, istərsə də, ictimai-siyasi hazırlıq məşğələlərinə böyük həvəslə qatılaraq yüksək nəticələr qazanır. Döyüş xidmətinə cəlb olunarkən vəzifə borclarını layiqincə yerinə yetirdiyinə görə bölüyün fəalları sırasındadır.

Əsgər E.Məmiyev düşünür ki, torpaqlarımızın düşmən tapdağı altında olduğu bir vaxtda hərbi bilikləri dərindən mənimsəməli, bu istiqamətdə səylərini əsirgəməməlidir.



Yaxın gələcəkdə qələbə sevincini yaşamağı arzulayan əsgərimiz o möhtəşəm günün çox uzaqda olmadığına inanır: "Hər ötən gün Azərbaycanın Silahlı Qüvvələri daha da güclənir. Bu gücün qarşısında heç bir düşmən tab gətirə bilməz. İnanıram ki, tezliklə torpaqlarımızın işğaldan azad olunacağı günü-Zəfər gününü böyük təmtəraqla qeyd edəcəyik. O zaman şəhidlərimizin ruhu şad olacaq, ana-bacılarımız igid vətən oğulları ilə fəxr edəcəklər".

**leytenant N.Ağayeva**




## ÖZ OĞULLARINA GÜVƏNƏ BİLƏRSƏN, VƏTƏN!

***Böyük fəxarət hissiylə deyə bilərik ki, 24 il ərzində şərəfli döyüş yolu keçən Daxili Qoşunlarda təlim-tədrisin keyfiyyətinin yüksəldilməsi, müasir tələblər səviyyəsində həyata keçirilməsi istiqamətində bir sıra mühüm addımlar atılıb. Eyni zamanda, ötən illərdə şəxsi heyətin mənəvi-psixoloji durumunun artırılması, onların hüquqi maarifləndirilməsi, ictimai-siyasi biliklərinin təkmilləşdirilməsi də diqqət mərkəzində saxlanılıb.***

Respublika Prezidenti cənab İlham Əliyevin 25 fevral 2011-ci il tarixli sərəncamı ilə Daxili Qoşunların peşəkar zabit kadrlarına olan ehtiyacının ödənilməsi məqsədilə Ali Hərbi Məktəbin yaradılması qoşunların həyatında mühüm hadisə oldu.

Peşəkarlıq, təkmilləşmə, təcrübədən bəhrələnmə, müasir dünyagörüşü və s. keyfiyyətlər mükəmməl tədrisə bağlı olan məqamlardır. Əsas vəzifəsi savadlı, bacarıqlı və vətənpərvər zabitlər hazırlamaqdan ibarət olan Ali Hərbi Məktəbdə bu gün zabit və gizirlərin ixtisaslarının artırılması, elmi-tədqiqat işlərinin aparılması uğurla həyata keçirilir.

Daxili Qoşunların yaradılmasının 24-cü ildönümü ərəfəsində Ali Hərbi Məktəbin zabit hazırlayan tədris bölüyünün kursantları ilə görüşdük. Tarixi keçmişimiz, qoşunların şanlı döyüş yolu, milli qəhrəmanlarımız haqqında qarşılıqlı fikir mübadiləsinin aparıldığı görüşdə bölüyün əlaçı kursantlarının düşüncələrini öyrənmək olduqca maraqlı idi. İşıqlı gələcəyimizin bugünkü savadlı, cəsur gənclərdən asılı olduğunu bildirən kursantlar Ana Vətən, torpaq, el-oba sevgisinin onlar üçün daha üstün olduğunu diqqətə çatdırdılar.

Kursant Loğman Bayramlı Daxili Qoşunlarda xidmətin şərəfli olduğunu qeyd edərək, hər bir hərbi qulluqçunun son nəfəsinədək Vətəni göz bəbəyi kimi qorumağı, lazım gələrsə, bunun üçün canından keçməyin vacib olduğunu söylədi. Kurs əlaçısı olan L.Bayramlı gələcəkdə nizam-intizamlı zabit kimi qarşıya qoyulan tələb və tapşırıqları hər zaman tam məsuliyyət və keyfiyyətlə yerinə yetirəcəyinə söz verdi.

Nizam-intizamı ilə seçilən kursant Qoşqar Əsgərov zabit adını, zabit şərəfini hər şeydən uca tutduğunu, onlara hərb sənətinin sirlərini öyrədən müəllim-pedaqoqların etimadını hər zaman doğruldacağını dedi.

Digər əlaçı kursant Elvin Kərimov isə Vətən sevgisini ona Qarabağ savaşında qəhrəmancasına vuruşaraq Qarabağ əlili olmuş atasının aşıladığını vurğulayaraq, düşməndən qisas alacağı günü səbrsizliklə gözlədiyini bildirdi. Daxili Qoşunların şəhidlərinin, milli qəhrəmanlarının rəşadətini hər zaman özü üçün nümunə bilən gənc kursant torpaq uğrunda ölməyi deyil, öldürməyi, düşmənə aman verməməyi qarşısına məqsəd qoyub.

"Vətən ana deməkdir. Uşaq anasını necə sevirsə, Vətəni də elə sevməlidir. Mən bundan sonrakı ömrümün qalan hissəsini yalnız xalqıma, Azərbaycan Respublikasına xidmətə həsr edəcəyəm". Bu fikirləri isə kursant Seyran Hüseynzadə səsləndirdi. S.Hüseynzadə danışdıqca gözlərində düşmənə nifrət hiss olunurdu.

Gənc kursantlarımız Emil Abdullayev, İlkin Allahverdiyev, Vüsal Babayev, İsmayıl Qasımov kimi sağlam düşüncəyə, əqidəyə malik, məsuliyyətli, intizamlı gənclərimizin timsalında Daxili Qoşunlar bundan sonra da igidlik nümunələri göstərəcəkdir. Necə deyərlər, öz oğullarına güvənə bilərsən, Vətən!

**leytenant N.Ağayeva**